Asif HACIYEV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Respublikası Təhsil İnstitutu
E-mail: haciyev_asif@mail.ru

"DƏDƏ QORQUD KİTABI": UNUDULMUŞ DOĞMA SÖZLƏR

Açar sözlər: Dədə Qorqud, söz, məna, şərh, fərqli yanaşma

Xülasə

"Dədə Qorqud kitabı" qədim folklor abidələrindəndir. Elə buna görə də onun dili müasir baxımdan işlək olmayan söz və ifadələrlə zəngindir. Eposun mövcud nəşrlərinin müqayisəli təhlili göstərir ki, qarşıya çıxan başlıca çətinlik həmin sözlərin əslinəuyğun oxunub mənalandırılması ilə bağlıdır. Düzgün variantı ortaya qoymaq üçün isə hər sözü incəliyinə qədər araşdırmaq tələb olunur. Bu zaman sözün tarixi inkişaf prosesində səs tərkibi və məna baxımından necə dəyişdiyi diqqət mərkəzində saxlanılmalıdır. Məqalədə mübahisə obyekti olan belə sözlər üzərində dayanılmışdır.

Summary

THE "BOOK OF DEDE GORGUD": FORGOTTEN NATIVE WORDS

The "Book of Dede Gorgud" is one of the ancient folklore monuments. That is why its language is rich in words and phrases that do not use from a modern point of view. A comparative analysis of the available publicatios of the epic shows, that the main difficulty is related to reading and interpretation of those words according to their origin. In order to find the right option, it is necessary to study each word to the last detail. In this case, the focus should be on how the word changes in terms of sound composition and meaning in the process of historical development. The article focuses on such controversial words.

Keywords: Dede Gorgud, word, meaning, interpretation, different approach

Резюме

"КНИГА ДЕДЕ КОРКУТА": ЗАБЫТЫЕ РОДНЫЕ СЛОВА

Книга Деде Коркута – является одним из памятников древнего фольклора. Поэтому его язык богат неиспользованными словами и выражениями, с современной точки зрения. Сравнительный анализ существующих изданий эпоса показывает, что основная трудность связана с правильным прочтением и толкованием этих слов. Чтобы найти подходящий вариант, необходимо изучить каждое слово до мельчайших деталей. В этом случае основное внимание следует уделять тому, как слово изменяется с точки зрения звукового состава и значения. В статье автор сосредоточился на таких словах, которые являются предметом споров.

Ключевые слова: Деде Коркут, слова, смысл, комментария, различный подход

Giriş. Sözlər canlı varlıqlara bənzəyir: yarandıqdan sonra uzun, yaxud qısa ömür yaşayırlar. Bəziləri ilkin forma və mahiyyətini qoruyub dilin fəal lüğət fondunda möhkəmlənir, bəziləri səs tərkibi və məna baxımından dəyişikliyə uğrayaraq öz mövcudluğunu davam etdirir, bəziləri isə tamamilə işləklikdən düşüb sıradan çıxır. Dilin tarixi inkişafında bir qanunauyğunluq kimi özünü göstərən bu davamlı proses son iki qrupa aid sözlərin qavranılmasında müəyyən problemlər yaratmaqla

qədim yazılı abidələrin tədqiqini xeyli çətinləşdirir. Araşdırma göstərir ki, türk-oğuz bədii təfəkküründün əvəzsiz əsərlərindən sayılan "Dədə Qorqud kitabı"nın elmi-tənqidi mətninin hazırlanmasında qarşıya çıxan başlıca fikir ayrılığı məhz bu tipli sözlərin əslinəuyğun oxunub açıqlanması ilə bağlıdır. Zaman axarında sirr pərdəsinə bürünmüş belə sözlərin mənaca açıqlanması həmişə maraq doğurmuş və hazırda da qorqudşünaslığın aktual məsələlərindən biri olaraq qalmaqdadır. Bunu nəzərə alaraq, onlardan bir qismi üzərində dayanmağı lazım bilirik.

Əsas hissə. 1. Görürmisiz, ağam Qazan baş kəsdi, qan dökdi, "Oğlan uşaq yemək yeməkcə gəlməz <baña>", – dedi [D-133, 1-2].

"Qazan bəy oğlı Uruz bəyin tutsaq olduğı boy"dan götürülmüş bu cümlədəki "uşaq" sözünün yozumu sual doğuran məqamlardandır. Tədqiqat göstərir ki, bütün naşirlər onu müasir mənada "oğlan uşağı", yaxud "kiçik oğlan" şəklində qavramışlar. Elə buna görə də M.Ergin vasitəsiz nitqi "oğlan çocuk yalnız yemek yemege gelmez", F.Zeynalovla S.Əlizadə isə "Mənə də heç oğul-uşağın yeməyi qədər təsir etmir" məzmununda [8, 97; 18, 169] müasirləşdirmişlər. Maraqlıdır ki, həmin vasitəsiz nitq Vatikan nüsxəsində "Oğlan uşaq aş yeməkcə gəlməz baña" variantında verilmişdir [V-73, 11]. Buradan aydın olur ki, birinci "yemək" sözü "aş" mənalı isimdirsə, ikincisi məsdər formasında -cə bənzətmə qoşmalı feildir. Cümlədəki sözlərin sıra ardıcıllığı deməyə əsas verir ki, "kiçik, balaca, xırda" mənalı "uşaq" sözü [4, 268; 13, 145-146; 14, Ic, 135; 21, Ic, 1773] keyfiyyət bildirən sifət olub, xəbər vəzifəsində çıxış edən "gəlməz" feili ilə deyil, "yemək" ismi ilə sintaktik əlaqədədir. Deməli, cümlənin mübtədası "oğlan uşaq" yox, sadəcə, "oğlan" sözüdür. "Gəlməz" çoxmənalı funksiyada çıxış edən sözlərimizdəndir ki, burada "yetişməz", "köməyə çatmaz", "fayda verməz" anlamındadır. Ona görə də cümləni "Oğlan kiçicik yemək yemək qədər mənə fayda verməz" kimi çevirmək lazım gəlir ki, bununla da Uruz atasının onu özünə döyüş yoldaşı bilmədiyini söyləyir. Elə bu cür münasibətlə razılaşmadığı üçün Uruz atasının göstərişini pozub, igidləri ilə döyüşə atılır və beləliklə, boydakı hadisələrin düyünlənməsinə zəmin yaradır.

2. Qanlu-qanlu sular əsən olsa, qanın قانغ düşər [D-145, 2-3].

Göründüyü kimi, bu cümlədə "suya doymaq" mənasında qədim "qan(maq)" feilindən [9, 45; 13, 107; 14, IIIc, 180; 21, IIc, 106] -ın şəkliçisi ilə düzələrək "daşqın" anlamını bildirən "qanın" sözü yazılmışdır və buna görə də "qanın düşər" ifadəsi "daşqın düşər" mənasında açıqlanmalıdır. O.Ş.Gökyay Drezden nüsxəsində "düşər" feilinin yazıldığını qeyd etsə də, onu "taşar" sözü ilə əvəzləmişdir [G, s. 104]. Bu əvəzetmə M.Ergin tərəfindən də təkrarlanıb [6, 170]. H.Araslı və Ş.Cəmşidov ifadəni "qamən daşar" [5, 350; 17, 82] şəklində oxumuşlar. F.Zeynalovla S.Əlizadə isə "düşər" sözünü yazıldığı kimi versələr də, "qanın" sözünü "qamın" sözü ilə əvəz etmişlər [18, 75].

Maraqlıdır ki, "qanın" və "qamın" yaxınmənalı sözlərdir. M.Ergin tərtib etdiyi lüğətdə mübahisəli göründüyü üçün qarşısında sual işarəsi qoymaqla "qamın" sözünün qarşılığı kimi "qanın" sözünü verir [6, 164]. Eposun dilində işlənilmə məqamlarını izlədikdə "qamın" sözünün "coşqun" anlamını ifadə etdiyini görürük:

Qamın aqan yügrək sudan bir oğul aqıtdıñsa, degil mana! [D-25, 2-3]

Qamın aqan görkli suyıñ qurımasun! [D-35, 4]

Bəzən "qanın" sözünün "qamın" kimi "aqan" feili ilə birgə işlənildiyini nəzərə alsaq, həqiqətən də, onların yaxınmənalı olduqlarına şübhə yeri qalmır:

Qanın aqan yügrək sudan bir oğul [uçurduñsa] <aqıtdıñsa>, degil mağa [D-138, 9-10].

Maraqlı faktdır ki, "qanın" sözü göstərilən mənada Qul Əlinin "Qisseyi-Yusif" əsərində də işlənilmişdir:

Qardaşları Yusifidən getdi yıraq.
Atasından, qardaşından oldı qıraq.
Baqrı yanar, qanın ağlar ikən fəraq,
Ağlar ikən müdam qıra baqar imdi [20, 52].

S.Tezcan-H.Boeschoten nəşrində isə ifadədəki "kanın" sözü saxlanılmış, "düşər" sözünün yerinə isə "daşar" sözü verilmişdir.

Beləliklə, gətirilən dil faktlarından da göründüyü kimi, "qanın düşər" ifadəsi "daşqın düşər" mənasını bildirir. Odur ki, hər iki tərəfin müvafiq qarşılığı ilə əvəzlənilməsinə heç bir ehtiyac yoxdur.

3. Aqındılı görkli sular qarısa, qara قا ره taşmaz [D-147, 1-2].

Qazan xana aid soylama mətnindən götürülmüş bu misradakı "qara taşmaz" ifadəsi də tarixi dil müstəvisində şərh edilməlidir. O.Ş.Gökyay kontekstdən çıxış edərək "kara taşmaz" ifadəsini "coşmak, coşkun sel haline gelmek, sel gibi taşıp akmak" mənasında açıqlayır [10, 336]. Lakin nə o, nə də M.Ergin buradakı "qara" sözünü fərqli məna daşıyan leksik vahid kimi izah etməyiblər. Fikrimizcə, buradakı "qara" sözü M.Kaşğari lüğətində "daşmaq" mənasında qeydə alınmış "qar-/kar-" feilinin [14, IIIc, 178] -a feili bağlama şəkliçisi qəbul etmiş formasıdır. Odur ki, "qara taşmaz" ifadəsi "aşıb daşmaz", "coşub daşmaz" məna çalarında açıqlanılmalıdır.

S.Tezcan bu ifadə üzərində ayrıca dayanmış və buradakı "qara" sözünü "qabarmaq" mənalı arxaik "qar-" feili ilə əlaqələndirmişdir [24, 226]. Araşdırma göstərir ki, "qar-" feilinin "daşmaq" mənasında işlənilməsi abidənin özü üçün heç də yad deyil. Bizə görə, naşirlərin "quru çay" və "quru-quru çaylar" şəklində oxuduqları birləşmələrdə "quru" sözü deyil, məhz "qar-" feilindən düzələrək "coşqun", "daşqın" mənası bildirən "qaru" sözü işlənilmişdir [11, 60].

4. Qarşum ala, yigit, məni nə məñlərsin مكلرسن ? [D-149,3]

Burla xatunun dilindən deyilmiş bu misradakı "məñlərsin" sözü mübahisəli oxunub açıqlanan dil faktlarındandır. Türkiyəli naşirlər onu "mañlarsın" şəklində oxumuşlar [6, 173; 10, 109; 23, 111]. Buna baxmayaraq, söz fərqli mənalarda açıqlanmışdır. Belə ki, O.Ş.Gökyay onu "ağlayıb inlemek, sızlamak" və V.V.Radlov lüğətindəki "munlamak" sözünə uyğun "mahzun olmak" mənasında, M.Ergin isə "bağırmak, feryad etmek" mənasında izah etmişlər [7, 211; 10, 366]. H.Araslı açımını verməsə də, "mənklərsən" variantında oxuyur [17, 84]. Ş.Cəmşidovun sözə yanaşması ziddiyətlidir. Mətn içində "məklərsən" şəklində oxuduğu sözü o, "munlarsan" şəklində təshih edir və "kədərlənmək, iztirab çəkmək, dərd-

lənmək, qəmlənmək" mənası verən "munalmaq//bunalmaq" sözü ilə əlaqələndirir [5, 198, 352]. F.Zeynalovla S.Əlizadə "məñlərsən" kimi oxuduqları bu sözü kontekstdən çıxış edərək, "saxlayırsan" feili ilə açıqlayırlar [18, 76, 174].

Fikrimizcə, bu söz M.Kaşğari lüğətində "yolmaq, didmək" mənasında izah olunan "mənqdəmək/məñdəmək" feilinin fonetik variantıdır [14, IIIc, 348, 349]. Bu qədim feil "minqdət-" səs tərkibində "diddirmək" mənasında da qeydə alınıb [14, IIc, 337]. Soylamada "məñlə-" (-r zaman, -sin isə şəxs şəkilçisidir) feili məhz "didmək" mənasına uyğun işlənilmişdir. Bununla da Burla xatun Qazan xanın düşdüyü vəziyyəti görüb ərinin dediyi sözlərin ona əzab verdiyini, qəlbini diddiyini bildirir.

5. Bıçaq alub qanadlarım qıran Qazan! [D-149, 6]

Yenə də Burla xatuna aid soylamadan götürülmüş bu misradakı "qanad" sözünü əksər araşdırıcılar işlənilmə məqamı nəzərə alınmadan müasir anlamda, yəni "quşların ətraf üzvləri" mənasında şərh etmişlər [7, 165; 10, 333; 18, 138, 176]. Lakin həm bu və həm də aşağıdakı nümunələr onun tamamilə fərqli məna kəsb etdiyini söyləməyə əsas verir:

Qanadlarıñ ucları qırılmasun! [D-35, 5].

Qanadlaruñ ucı qırılmasun! [D-154, 6].

Burada "qanad" sözünün heç də müasir anlamda işlənilmədiyi duyulmaqdadır. V.Zahidoğlu bu məqamları düzgün tutsa da, "qanad" sözünü "çadır örtüyünün hissəsi; çadır örtüyü" mənasında anlamışdır [25, 10].

Eposun müqəddimə hissəsində qadınlarla bağlı parçadan göründüyü kimi, oğuzlar evi ocaq saymış, onun müqəddəsliyini bəd xasiyyətli qadınlardan qorumağı vacib bilmişlər. Belə bir baxış boyların sonunda verilmiş yumlarda da öz əksini tapır. Fikrimizcə, "qanad" sözü abidənin mətnində çadır evlərin yan dirəkləri arasına yerləşdirilərək onları bir-birinə bağlayan və üzəri dəri ilə örtülən şəbəkə formasına deyilib. Bu sözün müasir qazax, qırğız, qaraqalpaq və xakas dillərində eynilə alaçığın şəbəkə hissəsini adlandırması [26, 253] tutarlı fakt kimi götürülməlidir. İstisna etmirik ki, "qanad" sözü məna köçürülməsi yolu ilə sonralar həm də çadır şəbəkəsinin üzərinə örtülən parçaya da deyilib [15, 160]. Görünür, V.Zahidoğlu da bu faktdan çıxış edərək "qanad" sözünü "çadırın örtüyü" anlamında açıqlamışdır. Lakin "qanadların ucu qırılmasın" alqışının ifadə etdiyi semantika göstərir ki, eposun formalaşdığı dövrdə o məhz cadırın ağac budaqlarından düzəldilmiş şəbəkə, qəfəs hissəsinə deyilib. Ağac şəbəkənin uc hissəsinin qırılması çadırların yıxılmasına səbəb olur ki, ulu Qorqud bunu oğuz bəylərinə arzu etməmişdir.

Göstərilən məqamda Burla xatun da Qazan xanı əlinə bıçaq alıb evinin dirəklərini qırmamasını, başqa sözlə, ailə ocağını dağıtmamasını xahiş edir.

6. Ağzım içi buz kibi, süñüklərim tuz طوز kibi oldı.

Mərə saqalcığı ağca qoca, gözcügəzi çöngə چوڭكه qoca! [D-157, 12 – 158,1]

Duxa qoca oğlu Dəli Domrulun Əzrayıla müraciətlə söylədiyi soylamadan götürülmüş bu misralardakı "tuz" və "çöngə" sözləri də fərqli yanaşmalara uğramış sözlərdəndir.

M.Ergin, F.Zeynalov-S.Əlizadə, həmçinin S.Tezcan-H.Boeschoten nəşrlərində "tuz" [6, 178; 18, 80; 23, 116], H.Araslı və Ş.Cəmşidov nəşrlərində "duz" [5, 356; 17, 88] variantlarında oxunan bu sözü O.Ş.Gökyay "toz" kimi verməklə "yaylara sarınan sırım" və "toz ağacının qabığı" mənalarında açıqlamışdır [10, 112, 423]. Fikrimizcə, iki baxımdan burada "tuz" sözünün işlədildiyini söyləməyə əsas var: birincisi, səs tərkibinə görə "toz" ilə müqayisədə "tuz" leksemi "buz" sözünə daha yaxındır; ikincisi, "tuz" deyildikdə duz dənələri deyil, duz daşları nəzərdə tutulur. Rəng və formasından əlavə, insan sümükləri kövrəkliyinə görə duz daşlarını xatırladır ki, ölüm mələyi Əzrayılı görən Dəli Domrulun qorxudan ağzı içinin buz kimi soyuduğunu, sümüklərinin isə duz kimi yumşaldığını, əridiyini bildirir.

Naşirlərdən yalnız Ş.Çəmşidov ikinci sözü "cöngə" kimi oxumuşdur [5, 356]. O.Ş.Gökyay və M.Ergin "çöngə" sözünü "bulanıq, nurunu itirən, zəif görən" anlamında izah etsələr də, F.Zeynalov və S.Əlizadə müasirləşdirdikləri mətndə "domba" mənasında açıqlamışlar [7, 76; 10, 259; 18, 178]. Araşdırma göstərir ki, bu qədim sifətdən düzələn "çöngəlmək" feilinə Bamsı Beyrəklə bağlı 3-cü boyda rast gəlinir:

"Qara qıyma gözləriñ çöngəlməsəydi,

Ağam Beyrək deyəydim, ozan, saña!" [D-106, 5-6]

Fikrmizcə, "çöngə" sözü vasitəsilə qoca sifətli Əzrayılın gözlərinin bulanaraq zəifləməsi deyil, çuxura düşməsi ifadə olunmuşdur. Eləcə də "çöngəlmək" feili ilə 16 illik əsirlik həyatında arıqlayaraq əvvəlki xarici görünüşünü dəyişmiş Beyrəyin qara qıyma gözlərinin ətrafının çuxurlanması qabardılmışdır.

7. Aydır: – Bəli, canım baba, eylə istərəm. Pəs varasın, bir cici-bici ججي بجي turkman qızını alasın, nagahandan tayanam, üzərinə düşəm, qarnı yırtıla? – dedi [D-171, 6-8].

"Qanlı qoca oğlı Qan Turalı boyu"nda Qan Turalının atasına cavab nitqindən götürülmüş bu parçadakı "cici-bici" sözü də fikir ayrılığına uğramış məqamlardandır. H.Araslı və Ş.Cəmşidov türkman qızını səciyyələndirən sözü "cici-bacı" kimi oxumuşlar [5, 363; 17, 95]. V.V.Bartold Qan Turalının türkman qızını bəyənmədiyindən çıxış edərək, onu "жалкую" (yazıq, zavallı) mənasında tərcümə etmişdir [19, 69]. F.Zeynalov və S.Əlizadənin müasirləşdirdikləri mətndə isə söz "cici-mici" kimi çevrilmişdir [18, 183]. Fikrimizcə, ən düzgün yozumu böyük qorqudşünas O.Ş.Gökyay irəli sürmüşdür. Buradan aydın olur ki, "xoş, incə naxışlarla bəzədilmiş, bəzəkli geyimlər geydirilmiş" anlamları verən bu açıqlamada [10, 250] "cici-bici" sözü ilə evdə oturub işi-gücü bəzək-düzəklə məşğul olan türkman qızlarını səciyyələndirilir. V.V.Radlov uşaqların nitqinə məxsus ifadə kimi bu sözü "gözəl, parlaq, yaraşıqlı gəlincik" anlamında izah edir [21, IVc, 154]. Maraqlıdır ki, "cici" sözü müasir dilimizdə eynilə uşaqların danışığında "xoşa gələn şey" anlamında işlənilməkdədir [2, Ic, 416]. Görünür, elə buna görə də Qan Turalı gəlincik kimi bəzənən ev qızını deyil, atasının dediyi kimi, cılasın bahadır qız istəyi ilə bu keyfiyyətlərə malik kafir qızını bəyənir.

8. Atlu batub <çıqamaz> anuň balçığına qonlar döşəyim [D-176, 7-8].

Cümlədə buraxılmış "çıqamaz" sözü Qanlı qocanın soylamasına əsasən bərpa edilmişdir ki, bütün nəşrlərdə özünü büruzə verir. Qorqudşünaslıqda başlıca fikir ayrılığı "qon" (-lar cəm şəkilçisidir) sözü üzərində qurulmuşdur. O.Ş.Gökyay sözün Drezden nüsxəsində səhv yazıldığını qeyd edərək, onu "qum" kimi oxumuş və müasir anlamda şərh etmişdir [10, 123, 361]. Eyni yanaşma M.Ergin, H.Araslı və S.Tezcan-H.Boeschoten nəşrlərində də təkrarlanır [6, 177; 7, 194; 17, 97; 23, 126].

F.Zeynalov-S.Əlizadə nəşrində "qunlar" variantında oxunan bu sözə belə bir şərh verilir: "Qum" sözü mətndə mənaca yapışıqlı görünür. Lakin D-dəki yazılış bu sözü "qumlar" kimi oxumağa imkan vermir..." [18, 243]. Sözün göstərilən variantda yazılış səbəbi açıqlanmadığından sadələşdirilmiş mətndə elə "qumlar" kimi də vermişlər [18, 184]. Fikrimizcə, görkəmli dilçilərimiz bu məqamda "qum" sözünün mətnə yapışıqlı olmasını söyləməkdə bir qədər yanılmışlar. Məsələ burasındadır ki, qum döşənməz, səpilər.

Ş.Cəmşidov da sözü "qunlar" variantında oxusa da, onu "qumlar" sözünün yanlış yazılması kimi təqdim edir [5, 365].

Əsərin böyük tədqiqatçılarından sayılan V.V.Bartoldun bu sözü hansı şəkildə oxuduğunu bilməsək də, mötərizə içərisində qarşısında sual işarəsi qoymaqla onu "keçə" mənası verən "войлок" kimi tərcümə etmişdir [19, 70]. Görünür, bu fakta xüsusi diqqət yetirən Ə.Tanrıverdi sözün oxunuş və izahı üzərində geniş dayanmış, mövcud yanaşmalara münasibət bildirərək, onu "gön" mənasında işlənilmiş "qön" sözü kimi transkripsiya etməyi məqsədəuyğun bilmişdir [22, 188-192].

Üzərində dayanılan sözün açımında açar rolunu oynayan "döşə-" (-yim şəxs şəkilçisidir) feilinin ifadə etdiyi mənadan çıxış edərək, burada, həqiqətən də, "keçə", "gön" və yaxud ona yaxın mənalı qədim bir sözün işlənildiyini irəli sürmək mümkündür. Bizə görə, "qon" sözü abidənin dilində oğuzların yaşadığı çadır otaqları örtmək üçün dəvə dərisinə deyilən "qom/kom" sözünün m~n səsdəyişiminə uğramış variantıdır. Həmin söz abidənin dilində getmiş "Kom komla mənim koma yurdum!" [D-44, 5-6] ifadəsinin tərkibində "dəri" anlamında çıxış edir və oğuz alaçıqlarının örtüldüyü materialı adlandırır. Ulu dilçi M.Kaşğari də "kom/qom" sözünü dəvə çulunun samanla doldurulub hürgücləri üzərinə qoyulan yəhər kimi izah etmişdir [14, IIIc, 136]. Maraqlıdır ki, müasir türk dillərində və dialektlərində eynilə "dəvə yəhərinin altına qoyulan keçə, dəri" mənasında işlədilən "kom" sözü [26, 53-54], görünür, ilkin olaraq, "dəri, keçə" anlamını daşımış və gətirilən nümunədə də bu mənanı bildirmişdir [12, 48]. Fikrimizcə, "qom" sözünün fonetik variantı olan "qon" sözü (müq. et: sümük – sünük/süñük, qomşu – qonşu və s.) palçıqlı yerlərdən keçmək üçün onun üzərinə atılan dəriyə deyilib. Aydındır ki, yürüşə çıxan ordu özü ilə qum deyil, məhz dəri çadırlar aparar. Həm də nəzərə almaq lazımdır ki, oğuzlar quma "kayır" deyiblər [14, IIIc, 163].

Beləliklə, "Atlu batub <çıqamaz> anuñ balçığına qonlar döşəyim" cümləsini "Onun atlı batıb çıxa bilməyən palçığına dərilər döşəyim" anlamında qədim türklərin yürüşə hazırlığının bir elementi kimi qavramaq daha məntiqi görünür.

9. Qan Turalı qırlar قزلر, dəvəniñ qoltuğundan girər, qırlar قزلر çıqar [D-186, 1-2].

Cümlədə 2 dəfə işlənilmiş "qırlar" sözünün yanlış yazıldığı düşünülərək əksər nəşrlərdə "fırlar" (yəni fırlanar) feili kimi verilmişdir. İlk məqamda hətta "qızlar" oxunuşunda yazılmasına baxmayaraq, bütün əlyazma boyu "re" hərfi üzərinə mexaniki surətdə nöqtə qoyuluşuna görə, onu da "qırlar" şəklində oxumaq lazım gəlir. S.Əlizadə buna belə bir açıqlama yazır: "D-dəki yazılışı ancaq "qızlar" kimi oxumaq olar. Lakin naşirlər həmin sözü "fırlar" kimi başa düşməkdə haqlıdırlar. Ehtimal ki, sözün ərəb əlifbası ilə yazılışında katib, nöqtələri müvafiq hərflərə görə düzgün bölüşdürməyib" [18, 244]. Ş.Cəmşidov əlyazmada təhrifə uğramış sözlər sırasında "qızlar" variantını göstərməklə ona "fırlar" şəklində düzəliş edir [5, 209]. Biz isə "fe" hərfi ilə başlanan sözlərin qədim türk dili üçün səciyyəvi olmadığını nəzərə alaraq, burada katib yanlışlığına yol verilmədiyini düşünüb, elə yazılışına uyğun "qırlar" kimi transkripsiya etməyi lazım bildik. Araşdırma göstərir ki, "Söyləşdilər fısıl-fısıl" [D-52, 7] cümləsindəki "fısıl-fısıl" sözündən başqa, "fe" ilə başlayan bütün sözlər ərəb-fars mənşəlidir. Seçim etdiyimiz "qırlar" isə səstəqlidi "qır" sözündən -la şəkliçisi ilə yaranmış feil olub "xırıldamaq" mənasındadır. Hazırda da bəzi türk dillərində "kırla-" fonetik variantında işlənən bu sözə rast gəlinir [3, 51; 16, 493; 21, IIc, 753]. Dilimiz üçün k/q~x səs keçidinə istinad etdikdə, bu qədim feil formasının hazırda "xırla-" şəklində işləndiyi aydın olur. Müqayisə üçün "Kitab"ın mətnində eyni fonetik hadisənin təsiri ilə ikili variantda yazılmış sözlərə diqqət yetirək.

Elə bu boyun əsas qəhrəmanı Qan Turalı və "Basat Dəpəgözü öldürdügü boy"da oğuz kişilərindən biri kimi Qapaq qan adlarındakı "qan" sözünü nümunə gətirmək olar:

"Qapaq qan derlər bir kişi vardı [D-220, 9-10].

Bu söz Xan Bayındır, yaxud Bayındır xan, Qazan xan, Dirsə xan, Buğac xan və b. oğuz adlarında artıq q~x səsdəyişməsinə uğramış variantda sabitləşmişdir.

Həmçinin üç məqamda "qalı" şəklində yazılsa da, ondança şəkliçisi ilə düzəlmiş törəməsi "xalıça" formasını almışdır:

Toqsan yerdə ala qalı ipək döşəmişdi [D-36, 3-4].

Aq çadır dikdilər, ala qalı döşədilər, ağca qoyun qırdılar, yedi yıllıq al şərab içürdilər [D-178, 6-8].

Al qalı döşədilər, oturdı [D-179, 2].

Biñ yerdə ipək xalıçası döşənmişdi [D-10, 3].

Çatır otağ, ala sayvan dikdirdi, ipək xalıçalar saldı, keçdi oturdı [D-73, 11-12] və s.

Maraqlıdır ki, "Kitab"ın mətnində eyni anlamda həm "xırla-", həm də ondan düzəlmiş "xırlat-" feilindən istifadə olunmuşdur:

Baya mırlardı, şimdi xırlamağa başladı [D-160, 3].

Əzrayilə buyruq eylədi kim: "Ya Əzrayil, var ol dəxi dəli qavatıň gözinə göringil, bəňizini sarartğıl!", – dedi, "Canını xırlatğıl, alğıl!" – dedi [D-156, 13 – 157,3].

Xırladıb canım alur oldu [D-164, 7].

Gətirilən nümunələrdə "xırla-" və "xırlat-" feilləri ilə zəif düşən igidin səsinin xırladığı ifadə edilmişdir. Döyüş səhnəsinin təsvirindən göründüyü kimi, Qan

Turalı ilk iki döyüşdə buğa və aslanla vuruşduğu üçün olduqca yorulmuşdur. Ona görə də daha arxaik fonetik forma olan "qırlar" feili ilə onun gücdən düşərək zəif nəfəs aldığı, xırıldadığı bildirilir. Bu fikir sonrakı cümlə vasitəsilə bir daha təsdiqini tapmış olur: "Sərxoş yigit həm iki canəvərlə savaşmışdı, tayandı düşdi".

Beləliklə, "qırla-" feili abidənin daha qədim leksik qatını ifadə edən sözlərdən biri kimi özünü göstərir.

10. Qara buğa gəldügində xurd-xaş eylədiň,
Qağan aslan gəldügində belini bükdüň,
Qara buğra gəldügində nə keçdiň كچدك ? [D-186, 9-11]

Fərqli şəkildə oxunub mənalandırılan sözlərdən biri də Qan Turalını qızmış aslanla döyüşə həvəsləndirmək üçün igidlərinin ona müraciətlə söylədikləri soylama parçasındakı "keçdiñ" feilidir. O.Ş.Gökyay bu feili "geçdüñ" şəklində oxuyur [10, 128], tərtib etdiyi sözlükdə isə "geçmək" feilini "bir yerdən qarşıya, o bir tərəfə keçmək, keçib getmək, dəlib o biri üzə keçmək, birini (yarışda) keçmək, yarışı qazanmaq, bağışlamaq, öndə olmaq, geridə buraxmaq, ölmək, vaz keçmək, buraxmaq, bağışlamaq, aşmaq" mənalarında açıqlayır [10, 291]. Bu məqamda sözün hansı mənada şərh olunduğunu yalnız təxmin etmək olar.

M.Ergin sözü "kiçdüñ" variantında transkripsiya etməklə "keçmək" anlamında verir [6, 191; 7, 202-203]. H.Araslı "gicidin", Ş.Cəmşidov "kiçidin" variantlarında oxumuşlar [5, 370; 17, 102]. F.Zeynalov-S.Əlizadə nəşrində "keçdiñ" şəklində oxunan bu feil forması "yorulub-düşdün" kimi müasirləşdirlmişdir [18, 89, 187]. S.Tezcan "gice(l)düñ" variantında oxuduqları bu sözü fars dilindən alınmış "gic" sifətindən düzəlmiş "gicəl-/gicəllən-" feili ilə bağlayaraq, "sərsəmlədin" mənasında izah etmişdir [23, 131; 24, 256].

Bizə görə isə, "keç-" feili M.Kaşğarinin izah etdiyi "gecikmək" mənasındadır [14, IIIc, 177]. Bununla da yoldaşları Qan Turalının az bir zamanda qara buğanın sümüklərini sındırdığını, qızmış aslanın belini bükdüyünü, amma qara buğraya yetdikdə niyə gecikdiyini soruşurlar.

11. "Qara buğa gəldügində qılçatmamış قلچاغمش ,
Qağan aslan gəldügində belin bükmiş,
Qara buğra gəldügində nə keçikmiş?!" deyələr [D-187, 1-3].

O.Ş.Gökyay "qılçatmamış" sözünü "kılçat-"feilinin -ma inkar və -mış zaman şəkilçisi qəbul etmiş forması kimi oxuyaraq, müəllifin özü üçün də sual doğuran "zirehlərin bir-birinə dəyərək səs çıxarması(?)" şərhini verir [10, 128, 348]. M.Ergin də eyni şəkildə oxuyub "çəkinmək, çiyin silkələmək, tərpətmək" və buna yaxın mənalarda yenə də özü üçün sual doğuran mənalarda izah verir [6, 191; 7, 180]. H.Araslı sözü iki hissəyə ayıraraq "qıl çatmamış" şəklində, Ş.Cəmşidov isə "qolçatmamış" variantında transkripsiya etmişlər [5, 370; 17, 102]. Lakin Ş.Cəmşidov mətndə verdiyi oxunuş variantını saxlamadan onu "qolçanmamış" şəklində təshih edir və "səndələmək, oraya-buraya qaçmaq, gizlənmək" anlamı bildirən "qılçanmaq" feili ilə əlaqələndirir [5, 209].

F.Zeynalov-S.Əlizadə nəşrində "qılçatmamış" variantında oxunan bu söz "diz çökdürməmiş" mənasında çevrilib [18, 89, 187]. S.Tezcan isə "talçanmamış" düzəliş variantında təqdim etdikləri bu sözü "uğraşmamış, yorulmamış, çabalamamış" mənalarında açıqlayır [23, 131; 24, 256-257].

Hadisələrin təsvirindən alınan məntiqi nəticə budur ki, Qan Turalının yoldaşları göstərilən feillə onun qara buğa ilə döyüşü zamanı özünü necə aparmasını ifadə etmişlər.

Fikrimizcə, bu söz M.Kaşğari lüğətində "sıyırmaq, yaralamaq" mənasında qeydə alınmış "kırçat-" feilinin [14, IIc, 317] r~l səs keçidinə uğramış şəklidir. Araşdırma göstərir ki, bu fonetik hadisə abidənin dilində "çadır" mənasında işlənilmiş "ülkə (<ürkə)" sözündə də özünü göstərir [12, 50]. "Qılçatmamış" (<qırçatmamış) feili ilə Qan Turalının ilk döyüşdə qara buğa buynuzundan yara almadığı, hətta dərisini belə sıyırtmadığı diqqətə çatdırılmışdır.

"Keçikmiş" (-miş zaman şəkliçisidir) sözü isə bir qədər öncə işlədilmiş "gecikmək" mənalı "keç-" kökündən -ik şəkilçisi ilə düzəlmiş feildir

12. Ozan gəldi, yeltəmə يلتمة çaldı [D-189, 13].

O.Ş.Gökyay və S.Tezcan-H.Boeschoten nəşrlərində "yelteme", M.Egin nəşrində "yilteme" şəklində oxunan "yeltəmə" sözü H.Araslı nəşrində "yeləmqə", F.Zeynalov-S.Əlizadə nəşrində "yelətmə", Ş.Cəmşidov nəşrində "yeltmə" fonetik variantlarında oxunmuşdur [5, 371; 6, 193; 17, 103; 18, 90; 23, 132]. S.Əlizadə öz oxunuş variantını belə şərh edir: "Yelətmə" rəqs melodiyasının adıdır. Onu təxminən müasir "Vağzalı" kimi baş düşmək olar. Güman ki, "ilətmək//yilətmək" ("aparmaq, yol salmaq" mənasında) feili ilə əlaqədardır" [18, 214].

Lakin araşdırma göstərir ki, bu qədim söz türk dillərinin bəzisində "yeltə-// yeldə" şəkillərində işləkliyini saxlayıb "coşmaq, ehtirasa gəlmək" mənalı feil kökündən [21, IIc, 354-355] -mə şəkilçisi ilə yaranmış leksemdir. "Coşan, ehtirasa gələn" anlamlı "yeltək" sifəti də [21, IIc, 354] məhz bu feil kökündən düzəlmişdir. Önəmli faktlardan biri də budur ki, "yeltə-" kökündən törəyərək "əsib-coşmaq, ehtiraslanmaq" mənası bildirən "yeltən-" feilinə elə bu boyda rast gəlinir:

Yavuz yerlərdə yeltəndiň, qayıda döngil! [D-176, 2-3]

İşlənilmə məqamı göstərir ki, "yeltəmə" musiqi havası bəyin gəlin gərdəyinə salınması ilə bağlı olub, ehtirasa gətirmə, coşdurma məqsədi daşımışdır. Odur ki, sözün "coşdurma, ehtirasa gətirmə" mənasını ifadə etməsi daha dəqiqdir.

13. Qarcaşuban قرجشوبن, uğraşuban tağdan endi [D-192, 10-11].

O.Ş.Gökyay "karcaşuban" şəklində oxuduğu "karçaş-" feilini (-uban feili bağlama şəkliçisidir) "qarışmaq, qarma-qarışıq olmaq" mənalarında izah edir [10, 131, 338]. Eyni yanaşma M.Ergin və S.Tezcan-H.Boeschoten nəşrlərində də gözlənilmişdir [6, 194; 7, 169; 23, 134]. H.Araslı, görünür, eyni mənada "qarcışuban", F.Zeynalovla S.Əlizadə "qoşularaq" mənasında "qurcuşuban", Ş.Cəmşidov isə şərh etmədiyi "qırcaşuban" variantlarında oxumuşlar [5, 373; 17, 104; 18, 91, 189]. Fikrimizcə, bu söz M.Kaşğari lüğətində "qatılaşmaq, sərtləşmək" mənasında izah olunan "karça-" feilindən [14, IIIc, 253] -ş qarşılıq-birgəlik şəkliçisi ilə dü-

zəlmişdir. V.V.Radlovun "qarışmaq" mənasında izah etdiyi "karçışmaq" feili də məhz bu qədim feil formasının tarixi inkişaf prosesində fonosemantik dəyişikliyə uğramış şəklidir. Bir qədər də dəqiqliyə varsaq, onun hansı mənanı ifadə etməsi özündən sonra işlənilən "uğraşuban" feili bağlamasının açımı ilə birbaşa əlaqəlidir. O.Ş.Gökyay bu sözü "döyüşmək, savaşmaq" mənasında açıqlamışdır [10, 426]. Lakin sözün "qarşılaşmaq, bir-birinə qarışmaq" mənasında işlənildiyi aydın duyulur ki, bu da eyni qrammatik formalı "qarcaşuban, uğraşuban" sözlərinin yaxınmənalı olduğunu göstərir. Hətta ola bilsin ki, "Kitab"ın üslubuna uyğun qaydada "uğraşuban" sözü artıq öz dövrü üçün işləklikdən düşmüş "qarcaşuban" sözünü şərh etmək məqsədilə işlənilib. Beləliklə, cümlədə üzərinə yağı yeriyən elin qarışıb dağdan enməsi fikrinin ifadə olunduğunu görürük.

14. Gözüniň qapağın oxşamışlar اوخشامشلر, yüzüni qan bürümiş [D-195, 7-8].

Əksər nəşrlərdə "oxlamışlar" variantında verilən "oxşamışlar" sözü yalnız F.Zeynalov-S.Əlizadə nəşrində əlyazmadakı yazılışına uyğun olaraq oxunmuş və "sıyrılmaq" mənasında izah edilmişdir [18, 91, 189]. S.Tezcan O.Ş.Gökyay və M.Erginin "oxşamışlar" sözünü "oxlamışlar" kimi düzəltmələrini qəbul etsə də, "oxşamışlar"ın daha doğru olduğunu və "sıyrıltmışlar" anlamında işlədilməsini ehtimal edir [24, 269]. Araşdırma göstərir ki, "oxşamaq" feilinin müasir dilimizdə daşıdığı mənalardan biri "sığallamaq, sürtmək"dir [2, IIIc, 517]. Boydakı hadisələrin təsvirindən məlum olur ki, burada düşmənin atdığı oxun Qan Turalının göz qapağına toxunaraq onu sıyırmasından, sürtməsindən bəhs olunur. Elə buna görə də oxun sıyırdığı, sürtdüyü yerdən qan axıb onun üzünü bürüyür.

15. Gedərək Qan Turalınıň fikrinə bu gəldi kim:

– Qalqubanı, Selcan xatun, turduğıňda,
Yelisi qara qazılıq atuň bindigiňdə,
Babamıň ağ ban eşiginə düşdügində,
Oğuzıň ala gözli qızı, gəlini boyladıqda بیلدقده,
Hər kişi sözin söyladikdə
sən orada turasın ögünəsin,

"Qan Turalı zəbun oldı, at ardına aldım çıqdım", – deyəsən [D-197, 7-13].

Mübahisəli oxunuş və mənalandırmaya uğramış sözlərdən biri də Qan Turlıya aid bu soylamadakı "boyladıqda" feili bağlamasıdır. O.Ş.Gökyayın xalq arasında kağıza yazdırılan dua mənasında işlənilən "boylama" sözü ilə əlaqələndirməsindən belə anlaşılır ki, o "boylamaq" feilini "dua etmək" mənasında düşünmüşdür [10, 241]. M.Ergin isə "boyladuqda" şəklində oxuduğu bu sözü "dastan söyləmək, hekayə anlatmaq" mənasında şərh edir [6, 196; 7, 56]. Deməli, görkəmli qorqudşünas bu sözlə "dastan" mənasında işlənən "boy" sözündən törəmiş "boylamaq" feili arasında fərq görməmişdir. Eposda isə boy boylamaq vəzifəsi yalnız Dədə Qorqudun adı ilə bağlanır. Odur ki, qız-gəlinin dastan, hekayə söyləməsi inandırıcı səslənmir.

H.Araslı bu sözü mənaca açıqlamadığı "bıldıqda", Ş.Cəmşidov isə yanlış yazıldığını düşünərək "bildikdə" şəklində transkripsiya etmişlər [5, 375; 17, 106].

V.V.Bartoldun həmin sözü "в летовке" kimi tərcüməsindən aydın olur ki, görünür, söz "yayladıqda" formasında oxunmuşdur [19, 77].

S.Əlizadə "bildıqda" şəklində oxuduqları bu feili "bildikdə" sözünün dialekt nitqinə məxsus variantı sayır və "bilduqda" kimi də oxunmasını mümkün hesab edir [18, 92, 245]. S.Tezcan isə "yığıldıqda" şəklində verdikləri bu sözü "toplandıqda" anlamında izah etsə də, başqa cür də düzəldilə bilinməsini irəli sürür və qəti əminliklə burada "boyladıqda" sözünün olmadığını söyləyir [23, 269].

Lakin araşdırma göstərir ki, burada məhz "boyladıqda" sözü işlədilmişdir. Bəzi dialektlərimizdə "görmək, baxmaq" mənalı "boyla-" feilinin işlənildiyi məlumdur [1, 62]. Fikrimizcə, "baxmaq" mənalı "boylanmaq" sözü də həmin feildən -n qayıdış növ şəkliçisi ilə düzəlmişdir. Bu isə birləşməni "Oğuzun ala gözlü qızı, gəlini boylanıb baxdıqda" kimi başa düşməyə əsas yaradır. Həqiqətən də, Selcan xatun kimi yad adamın gəlişini evdəki qız-gəlin necə qarşılamalıdır? Təbii ki, qarşısına çıxıb baxmaqla.

Nəticə. Sözlərin izahında qarşıya çıxan çətinliklər bir daha onu göstərir ki, "Dədə Qorqud kitabı" türk dilinin qədim leksik layı ilə sıx bağlıdır. Bu da ondan irəli gəlir ki, ulu Qorqud tərəfindən düzülüb-qoşulmuş boylar toplusu sonrakı nəsil ozanlarının yaradıcı süzgəcindən keçirilməklə çoxəsrlik bir formalaşma mərhələsi yaşamış və yalnız bundan sonra yazıya alınmışdır.

Qısaltmalar

D. Kitabi-Dədəm Qorqud ala lisani-taifeyi-oğuzan. Drezden nüsxəsi.

V. Hekayəti-oğuznameyi-Qazan bəg və qeyri. Vatikan nüsxəsi.

Ədəbiyyat

1. Azərbaycan dilinin dialektoloji lüğəti. – Bakı: Şərq-Qərb, –2007. – 560 s.

2. Azərbaycan dilinin izahlı lüğəti (dörd cilddə) / Elmi redaktoru Ə.Orucov, – Bakı: Şərq-Qərb, – 2005.

3. Будагов, Л.З. Сравнительный словарь турецко-татарских наречий (в 2 томах) / Л.З. Будагов. – С.-Пб., – т. 2, – 1871, – 415 с.

4. Caferoğlu, A. Eski Uyğur Türkcesi Sözlügü /A.Caferoğlu. – İstanbul: Edebiyyat Fakültesi Basımevi, – 1968. – 320 s.

5. Cəmşidov, Ş. "Kitabi-Dədə Qorqud" (Tarixi, coğrafi, tekstoloji tədqiq və Drezden əlyazmasının dürüstləşdirilmiş elmi mətni) / Ş.Cəmşidov. – Bakı: Elm, – 1999. – 680 s.

6. Ergin, M. Dede Korkut Kitabı / M.Ergin. – Ankara: Türk Tarix Kurumu Basımevi Ic (Giriş – Metin – Faksimile), –1958. – 251 s.

7. Ergin, M. Dede Korkut Kitabı / M.Ergin. – Ankara: Türk Tarix Kurumu Basımevi II c (İndeks – Gramer), – 1963. – 483 s.

8. Ergin, M. Dede Korkut Kitabı / M.Ergin. – İstanbul: Boğaziçi Yayınları, – 2008. – 212 s.

9. Əl-Əndəlusi, Ə.H. Kitab-əl-idrak li-lisan əl-ətrak (Türk dillərini dərketmə kitabı) / Ə.H. Əl-Əndəlusi. – Bakı: Azərnəşr, – 1992. – 115 s.

10.Gökyay, O.Ş. Dedem Korkutun Kitabı / O.Ş.Gökyay. – İstanbul: Kabalcı Yayınevi, – 2006. – 1391 s.

11.Hacıyev, A.X. "Dədə Qorqud kitabı"nın şərhli oxunuşu II kitab (1və 2-ci boylar üzrə) / A.X. Hacıyev (Şirvanelli). – Bakı: Elm və təhsil, – 2019. – 168 s.

12.Hacıyev, A.X. "Dədə Qorqud kitabi"nda ev anlayışı ifadə edən sözlər haqqında / A.X. Hacıyev (Şirvanelli). – Bakı: Dədə Qorqud elmi-ədəbi toplu II, – 2019. – s. 40-51.

13.İbn Mühənna, S.Ə.C. Hilyətül-insan və həlbətül-lisan / S.Ə.C. İbn Mühənna. – Bakı: Kitab aləmi, – 2008. – 160 s.

14.Kaşğari, M. Divani luğat-it-türk (dörd cilddə). (Tərcümə edən və nəşrə hazırlayan: R.Əsgər) / M. Kaşğari. – Bakı: Ozan, – 2006.

15.Kazak Türkcesi Sözlüğü (tercüme: H.Oraltay, N. Yüce, S. Pinar) – İstanbul: Türk Dünyası Araştırmaları Yayını, – 1984. – 329 s.

16.Киргизско-русский словарь (в 2 книгах). Составитель К.К. Юдахин. – М.: Советская энциклопедия, – 1965. – т. 1. – 504 с.

17.Kitabi-Dədə Qorqud (tərtib edən: Araslı H.). – Bakı: Gənclik, – 1978. – 184 s.

18.Kitabi-Dədə Qorqud (tərtib, transkripsiya, sadələşdirilmiş variant və müqəddimə F.Zeynalov və S.Əlizadənindir). – Bakı: Yazıçı, – 1988. – 264 s.

19.Книга моего Деда Коркута. Перевод В.В.Бартольда, издатели: В.М. Жирмунский, А.Н. Кононов. – Баку: YNE "XXI", – 1999. – 320 с.

20.Qul Əli. Qisseyi-Yusif / Qul Əli. – Bakı: Şərq-Qərb, –2004. –216 s.

21.Радлов, В.В. Опыть словаря тюркских наречий (в 4 томах) / В.В. Радлов. – С.-Пб. – 1893-1911.

22.Tanrıverdi, Ə. "Kitabi-Dədə Qorqud"un söz dünyası / Ə.Tanrıverdi. – Bakı: Nurlan, – 2006. – 471 s.

23.Tezcan, S. Dede Korkut Oğuznameleri / S.Tezcan, H.Boeschoten. – İstanbul: YKY, – 2001. – 315 s.

24.Tezcan, S. Dede Korkut Oğuznameleri Üzerine Notlar / S.Tezcan. – İstanbul: YKY, – 2001. – 375 s.

25.Zahidoğlu, V. "Dədə Qorqud kitabı"nın nəşrlərindəki yanlışlıqlar və mətn həqiqətləri / V.Zahidoğlu. – Bakı: Dədə Qorqud elmi-ədəbi toplu IV. – 2013. – s. 3-22.

26.Этимологический словарь тюркских языков. Общетюркские и межтюркские лексические основы на буквы "К", "Қ". – М.: Языки русской культуры, – 1997. – 368 с.